**Araz Ramiz ƏLİQULİYEV**
Prof.dr. psixiatr, narkoloq, psixoterapevt, Medi-Art klinikasının baş həkimi
E-mail: alikuliev@gmail.com

**Gülnur Elnur ABIŞOVA**
Xəzər Universiteti, Klinik Psixologiya, Psixologiya departamentinin magistrantı
E-mail: psy.gu1nur.abishova@gmail.com

# UNİVERSİTET TƏLƏBƏLƏRİNİN PSİXOLOJİ RİFAHINDA AİLƏ DƏSTƏYİNİN ROLU

**Xülasə**

Bu məqalədə universitet tələbələrinin psixoloji rifahının formalaşmasında ailə dəstəyinin rolu nəzəri və empirik ədəbiyyat əsasında təhlil edilmişdir. Universitet dövrünün fərdin həyatında kritik mərhələ hesab olunmasının əsasları açıqlanmışdır . Araşdırmalar göstərir ki, tələbələrin yaşadığı akademik stres, gələcək qeyri-müəyyənlik və sosial dəyişikliklər onların psixoloji vəziyyətinə birbaşa təsir göstərir və bu prosesdə sosial dəstək mühüm qoruyucu faktor kimi çıxış edir. Məqalədə sosial dəstək anlayışı, onun birbaşa təsir və stres-tamponlayıcı (buffer) modelləri izah edilmiş, xüsusilə qavranılan sosial dəstəyin psixoloji rifahla daha güclü əlaqəli olduğu qeyd olunmuşdur. Empirik tapıntıların təhlili göstərir ki, sosial dəstək növləri arasında ailə dəstəyi tələbələrin emosional sabitliyi, depressiv simptomların azalması, akademik uyğunlaşma və həyat məmnunluğu ilə daha güclü korrelyasiya nümayiş etdirir. Psixoloji rifah anlayışı həm hedonik (subyektiv rifah), həm də eudaimonik (şəxsi inkişaf və həyat məqsədi) yanaşmalar çərçivəsində izah edilmiş və ailə faktorunun rifahın hər iki istiqamətinə təsir etdiyi əsaslandırılmışdır. Eyni zamanda kollektivist mədəniyyət kontekstində ailə institutunun sosial strukturda mərkəzi mövqeyi nəzərə alınaraq Azərbaycan və Türkiyə kimi cəmiyyətlərdə ailə dəstəyinin daha intensiv və çoxölçülü təsirə malik olduğu qeyd edilmişdir. Nəticə etibarilə, ailə dəstəyi tələbə rifahının qorunması və inkişaf etdirilməsi baxımından əsas sosial resurs kimi qiymətləndirilmiş, lakin Azərbaycan kontekstində bu sahədə sistemli empirik tədqiqatların aparılmasının zəruriliyi vurğulanmışdır.

**Açar sözlər:** ailə dəstəyi, sosial dəstək, psixoloji rifah, universitet tələbələri, Stress-buffer modeli, həyat məmnunluğu.

**UOT:** 378.015.3:316.362
**JEL:** I23, I31, D91
**DOI:** https://doi.org/10.54414/AYMP9536

## Giriş

Universitet dövrü fərdin həyatında erkən yetkinliyə keçid dövrünə təsadüf edən ən mühüm mərhələlərdən biridir. Bu dövrdə şəxsin mənlik şüuru, cinsi və xarakterik identikliyi formalaşır, sosial rollar rekonstruksiya olunur. Həmçinin bu inkişaf mərhələsi tələbələr üçün gələcəyə dair qayğılar, akademik yeniliklər, sosial dəyişikliklərə uyğunlaşma, peşə seçimi və s. kimi qeyri-müəyyənliklər ehtiva etdiyindən onların psixoloji vəziyyətlərini həssaslaşdıra bilər. Tədqiqatlar göstərir ki, universitet tələbələri arasında stres və emosional gərginlik halları kifayət qədər geniş yayılmışdır. Şəxsiyyətlərarası münasibətlər sferasındakı dəyişikliklər, imtahan stresi və akademik nailiyyət gözləntiləri psixoloji gərginliyi artıran vacib amillərin sırasındadır [10, s.218]. Bu mərhələdə tələbələrin emosional vəziyyəti onların sosial dəstək sistemindən birbaşa asılıdır.

Sosial dəstək anlayışı psixologiyada fərdin sosial mühitdən aldığı emosional, instrumental və informasiya xarakterli yardımı ifadə edir. Bu anlayış sosial əlaqələrin psixi sağlamlığa müsbət təsir edən faktor olduğunu göstərir. Sosial dəstəyin xüsusilə qavranılan forması – yəni fərdin

dəstəkləndiyini hiss etməsi – psixoloji uyğunlaşma ilə daha güclü əlaqədə görünür [9, s.83].

Türkiyədə aparılmış tədqiqatlar göstərir ki, sosial dəstəyin vacib növü olan ailə dəstəyinin digər dəstək növlərinə nisbətən psixoloji rifaha daha güclü və sabit təsiri vardır. Bir sıra tədqiqatlar ailə dəstəyi faktorunun stres səviyyəsinin azalması və emosional tarazlığın təmin olunması vəziyyəti ilə yüksək qarşılıqlı əlaqədə olduğunu ortaya çıxarmışdır [6, s.19].

Bu nəticələr tələbələrin psixoloji rifahının təhlili adına ailə faktorunun təsirlərinin bir sosial resurs kimi diqqətəlayiq olduğuna işarədir. Xüsusilə Türkiyə və Azərbaycan kimi ailə dəyərlərinin sosial quruluşda əhəmiyyətli mövqeyə sahib olduğu cəmiyyətlərdə sosial dəstəyin, ailə sferasının zehni sağlamlıq üzərindəki təsirlərinin strukturlaşdırılmış şəkildə tədqiq edilməsinə ehtiyac vardır.

**Sosial dəstək anlayışı və nəzəri əsasları**

Sosial dəstək psixoloji kontekstdə şəxsin sosial çevrədən maddi, mənəvi yardımları, emosional qəbul və anlayışı ifadə edir. Bu anlayış sadəcə spesifik yardım aktları ilə yanaşı, eyni zamanda fərdin özünü sosial sistem daxilində ikən kifayət qədər dəyərli və güvəndə hiss etməsi ilə bağlı psixoloji təcrübəni də ehtiva edir. Müasir araşdırmalarda sosial dəstək daha çox "qavranılan dəstək" kimi şərh edilir və bu zaman fərdin dəstəyi necə qavradığı əsas götürülür.

Yıldırım sosial dəstəyi daha çox fərdin subyektiv nöqteyi-nəzərindən dost, ailə və digər vacib çevrələrdən aldığı sosial və emosional dəstəyin necəliyi kimi izah edir [9, s.82]. Yəni sosial dəstəyin psixoloji təsiri onun sadəcə mövcud olmasından deyil, fərdin onu necə qəbul etməsindən asılıdır. Bu yanaşma sosial dəstək və psixoloji rifah arasındakı əlaqəni açıqlamaq üçün mühüm nəzəri əsas yaradır.

Sosial dəstək modelində iki əsas mexanizm fərqləndirilir: birbaşa təsir və tamponlayıcı (stress-buffer) təsir. Birbaşa təsir modeli - sosial münasibətlərin mövcudluğunun fərdin emosional vəziyyətinə müsbət təsir göstərdiyini və ümumi rifah səviyyəsini artırdığını vurğulayır. Stress - buffer modeli isə sosial dəstəyin xüsusilə stres səviyyəsinin yüksək olduğu situasiyalarda qoruyucu rol oynadığını və stresin psixoloji təsirini zəiflətdiyini ifadə edir [3, s.312].

Türkiyədə tələbələrlə aparılmış empirik araşdırmalar bu modeli dəstəkləyir. Yıldırımın apardığı tədqiqatda ailədən qavranılan sosial dəstəyin depressiv simptomlarla mənfi əlaqəli olduğu və akademik stresin təsirini azaltdığı göstərilmişdir [10, s.224]. Müəllif qeyd edir ki, ailə tərəfindən emosional qəbul və anlayış hissi tələbənin streslə mübarizə qabiliyyətini gücləndirir.

Eker, Arkar və Yaldız tərəfindən aparılmış araşdırmalarda sosial dəstəyin 3 alt-şkalası, ailə, dost və xüsusi şəxs şkalaları müqayisəli şəkildə təhlil edilmiş və ailə alt-şkalasının emosional adaptasiya ilə daha güclü korrelyasiya təşkil etdiyi müəyyən edilmişdir [6, s.19]. Bu nəticə bir sosial resurs olaraq ailə faktorunun xüsusi əhəmiyyət daşıdığını göstərir. Beləliklə, ailə dəstəyi tələbənin həm emosional stabilliyinə, həm də akademik uyğunlaşmasına təsir edən əhəmiyyətli sosial resurs kimi çıxış edir.

**Psixoloji rifah anlayışı.** Psixoloji rifah anlayışı müasir psixologiyada sadəcə psixi pozuntu halının olmaması ilə məhdudlaşmır, daha geniş aspektdə fərdin həyat məmnunluğu, emosional sabitliyi, məqsədinin mövcudluğu və individual inkişafı ilə əlaqələndirilir. Bu anlayış fərdin öz həyatını necə qiymətləndirməsi və təcrübələrinə hansı mənanı verməsi ilə bağlı kompleks psixoloji quruluş kimi izah olunur.

Rifah anlayışının nəzəri əsasları iki istiqamətdə formalaşmışdır. Birinci istiqamət hedonik istiqamət adlanır və əsasən həyat məmnuniyyəti və müsbət emosiyaların çoxluğu ilə əlaqələndirilir. Diener fərdin öz həyatından razılıq səviyyəsini və emosional balans halını subyektiv rifah olaraq dəyərləndirir [4, s.543]. Bu yanaşmaya görə rifah, fərdin öz həyatını müsbət qiymətləndirməsi ilə birbaşa əlaqəlidir.

İkinci yanaşma isə eudaimonik istiqamət kimi təqdim olunur və rifahı fərdin həyat məqsədi, şəxsi inkişafı və potensialını həyata keçirməsi ilə əlaqələndirir. Ryff psixoloji rifahı altı əsas komponent üzrə təsvir etmişdir: özünü qəbul, müsbət münasibətlər, muxtariyyət, ətraf mühitə nəzarət, həyat məqsədi və şəxsi inkişaf [7, s.1071]. Müəllif vurğulayır ki, rifah yalnız emosional komfort deyil, həm də funksional yetkinlik göstəricisidir.

Akın tərəfindən aparılan adaptasiya və etibarlılıq araşdırmasında psixoloji rifah səviyyəsinin şəxsiyyətlərarası münasibətlərin necəliyi ilə müsbət əlaqəli olduğu müəyyən edilmişdir [1, s.744]. Bu nəticə rifahın sosial məzmunla bağlılığını təsdiqləyir.

Universitet tələbələri üçün isə rifah halı daha həssas və riskli xarakter daşıyır. Akademik təzyiq, sosial uyğunlaşma problemləri və gələcək qeyri-müəyyənlik tələbələrin emosional sabitliyinə təsir göstərə bilər. Yıldırımın araşdırmasında kifayət qədər sosial dəstək resursu olmayan tələbələrdə depressiv simptomların daha yüksək olduğu göstərilmişdir [10, s.222]. Bu nəticə psixoloji rifahın sosial resurslardan təsirləndiyini göstərir.

**Ailə dəstəyi və tələbə rifahı: empirik tapıntıların təhlili.** Ailə dəstəyi sosial dəstək növləri arasında ən davamlı və strukturlaşmış dəstək növü olaraq qiymətləndirilir. Xüsusən universitet dövründə tələbə fiziki olaraq ailədən uzaqlaşsa belə, emosional bağlılıq davam edir və bu bağlılıq psixoloji stabillik adına mühüm rol oynayır. Empirik tədqiqatlar ailə dəstəyi ilə tələbə rifahı arasında ardıcıl şəkildə müsbət korrelyasiya olduğunu göstərir.

Yıldırım tərəfindən tələbələr üzərində aparılan tədqiqatda ailə dəstəyi yüksək olan tələbələrdə həm imtahan həyəcanının, həm də emosional gərginliyin daha aşağı səviyyədə olduğu müşahidə edilmişdir [10, s.223]. Müəllif bu nəticəni ailənin emosional təhlükəsizlik bazası funksiyası ilə izah edir. Aydın və Tezerin araşdırmaları da sosial dəstəyin həyat məmnunluğu ilə müsbət əlaqəli olduğunu göstərmişdir [2, s.807]. Müəlliflər fərdin özünü dəyərli hiss etməsinin və müsbət emosional vəziyyətin qorunmasının ailə münasibətlərindəki emosional yaxınlıq səviyyəsilə əlaqəli olduğunu vurğulayırlar. Bu tapıntılar göstərir ki, ailə dəstəyi yalnız stresin azalmasına xidmət etmir, eyni zamanda tələbənin özünə inam və sosial uyğunlaşma səviyyəsini də gücləndirir. Xüsusilə emosional dəstəyin – yəni qəbul və anlayış hissinin – rifah üzərində daha güclü təsir göstərdiyi müşahidə olunur.

Türk ədəbiyyatında aparılmış bəzi araşdırmalar ailə dəstəyinin akademik uyğunlaşma ilə də əlaqəli olduğunu göstərir. Ailə tərəfindən təşviq və dəstək görən tələbələrdə akademik özünə inam hissinin daha yüksək olduğu müəyyən edilmişdir [10, s.225]. Bu isə ailə dəstəyinin rifaha dolayı təsir mexanizminin mövcudluğuna nümunə ola bilər. Azərbaycan kontekstində ailə institutunun sosial strukturda mühüm yer tutduğu nəzərə alınarsa, bu tapıntıların yerli tələbə nümunələri üçün də aktual olduğu ehtimal olunur. Lakin bu sahədə sistemli empirik tədqiqatların azlığı diqqət çəkir. Mövcud regional araşdırmalar sosial bağlılıq və həyat məmnunluğu arasında müsbət əlaqə olduğunu göstərsə də, ailə dəstəyinin spesifik təsir mexanizmləri hələ kifayət qədər araşdırılmamışdır. Beləliklə, mövcud empirik ədəbiyyat ailə dəstəyinin tələbə rifahına həm birbaşa, həm də dolayı təsir göstərdiyini təsdiqləyir. Ailə dəstəyi tələbənin emosional sabitliyini gücləndirir, stres səviyyəsini azaldır və sosial uyğunlaşmanı asanlaşdırır.

**Mədəni kontekst və kollektivist struktu**

Ailə dəstəyinin tələbə rifahına təsiri yalnız fərdi psixoloji dəyişənlərlə izah edilə bilməz; bu təsir eyni zamanda mədəni kontekstlə sıx bağlıdır. Sosial münasibətlərin quruluşu, ailə institutunun cəmiyyətdəki mövqeyi və fərdi muxtariyyətə verilən dəyər sosial dəstəyin funksiyasını müəyyən edən əsas amillər sırasındadır. Bu baxımdan kollektivist və fərdiyyətçi mədəniyyətlər arasında fərqli sosial dinamikanın mövcud olduğu qeyd olunur.

Triandis kollektivist mədəniyyətlərdə ailə və yaxın sosial qrupların fərdi identikliyin əsas tərkib hissəsi kimi çıxış etdiyini vurğulayır [8, s. 43]. Müəllifin fikrincə, bu tip cəmiyyətlərdə sosial bağlılıq və ailə münasibətləri fərdin qərarvermə prosesinə və emosional sabitliyinə birbaşa təsir göstərir. Belə mədəniyyətlərdə ailə dəstəyi yalnız emosional resurs deyil, həm də normativ çərçivə rolunu oynayır.

Türkiyə kontekstində aparılmış araşdırmalar ailə bağlılığının sosial dəstək strukturu daxilində mərkəzi yer tutduğunu göstərir. Yıldırımın tədqiqatında ailə alt-ölçüsünün digər sosial dəstək mənbələrinə nisbətən daha güclü təsir göstərdiyi qeyd olunur [9, s.85]. Bu nəticə kollektivist xüsusiyyətlərin sosial dəstəyin strukturuna təsir etdiyini göstərir.

Digər tərəfdən, kollektivist mədəniyyətlərdə ailə gözləntilərinin yüksək olması bəzi hallarda psixoloji təzyiq yarada bilər. Ailə tərəfindən göstərilən dəstək bəzən nəzarət və ya

normativ təzyiq kimi qavranıla bilər. Bu halda sosial dəstəyin təsiri ambivalent xarakter ala bilər. Aydın və Tezer sosial dəstəyin keyfiyyətinin və emosional tonunun rifah üçün həlledici olduğunu qeyd etmişdir [2, s.808]. Yəni dəstəyin mövcudluğu qədər, onun təqdim olunma forması da əhəmiyyətlidir.

Azərbaycan cəmiyyəti də sosial strukturu baxımından kollektivist xüsusiyyətlərə malikdir. Ailə münasibətləri sosial həyatın əsas dayaqlarından biri hesab olunur və valideyn-övlad əlaqələri uzun müddət davamlı xarakter daşıyır. Bu kontekstdə ailə dəstəyinin tələbə rifahına təsiri daha intensiv ola bilər. Lakin eyni zamanda ailə gözləntilərinin yüksək olması akademik təzyiq faktorunu da gücləndirə bilər.

Beləliklə, ailə dəstəyinin tələbə rifahına təsiri mədəni kontekst çərçivəsində qiymətləndirilməlidir. Kollektivist strukturlarda ailə sosial resurs kimi daha güclü mövqe tutur, lakin bu resursun müsbət təsiri onun emosional dəstək xarakteri daşımasından asılıdır. Əks halda, normativ və nəzarətçi münasibət rifah üzərində mənfi təsir göstərə bilər.

**Mövcud boşluqlar və gələcək tədqiqat istiqamətləri.** Mövcud ədəbiyyat ailə dəstəyinin tələbə rifahı ilə müsbət əlaqəli olduğunu göstərsə də, bu sahədə bir sıra nəzəri və empirik boşluqlar mövcuddur. İlk növbədə, araşdırmaların əksəriyyəti kəsişməli dizayn üzərində qurulmuşdur. Bu isə səbəb-nəticə əlaqələrinin daha dərindən izahına imkan vermir. Uzunmüddətli tədqiqatların azlığı ailə dəstəyinin rifaha təsirinin zaman daxilində necə dəyişdiyini müəyyən etməyi çətinləşdirir.

Digər bir məsələ ailə dəstəyinin struktur komponentlərinin müqayisəli şəkildə araşdırılmamasıdır. Türk ədəbiyyatında ailə alt-ölçüsünün güclü təsiri göstərilsə də [6, s.19], emosional və instrumental dəstəyin nisbi təsir gücü sistemli şəkildə təhlil edilməmişdir. Xüsusilə emosional qəbul və normativ gözləntilər arasındakı fərqin rifaha necə təsir göstərdiyi daha ətraflı araşdırılmalıdır.

Bundan əlavə, kollektivist mədəniyyətlərdə ailə dəstəyinin həm qoruyucu, həm də təzyiq yaradan tərəfləri ola biləcəyi qeyd edilir. Lakin bu ambivalent təsir mexanizmi empirik səviyyədə yetərincə araşdırılmamışdır. Aydın və Tezer sosial dəstəyin keyfiyyətinin onun mövcudluğundan daha əhəmiyyətli olduğunu vurğulasalar da [2, s.808], ailə dəstəyinin emosional tonu ilə normativ təzyiq arasındakı sərhəd daha sistemli şəkildə təhlil edilməlidir.

Azərbaycan kontekstində isə ailə dəstəyi və tələbə rifahı üzrə aparılmış tədqiqatların məhdudluğu xüsusi diqqət çəkir. Mövcud regional araşdırmalar əsasən həyat məmnunluğu və sosial bağlılıq üzərində fokuslansa da, ailə dəstəyinin spesifik təsir mexanizmləri ayrıca araşdırılmamışdır. Bu sahədə lokal empirik məlumatların artırılması nəzəri nəticələrin regional kontekstdə yoxlanılması baxımından mühüm əhəmiyyət daşıyır.

Gələcək tədqiqatlarda ailə dəstəyinin emosional, instrumental və qiymətləndirici komponentlərinin ayrı-ayrılıqda təhlili, eləcə də mədəni faktorların modulyator rolu nəzərə alınmalıdır. Bu yanaşma ailə faktorunun tələbə rifahına təsirini daha dəqiq və çoxölçülü şəkildə izah etməyə imkan verə bilər.

**Nəticə**

Aparılmış ədəbiyyat icmalı təsdiq edir ki, sosial dəstək modeli universitet tələbələrinin psixoloji rifahını anlamaq üçün ən fundamental nəzəri çərçivələrdən biridir. Tədqiqatın gəldiyi əsas qənaət odur ki, fərdin həyatındakı müxtəlif sosial bağlar arasında məhz ailə dəstəyi emosional sabitliyin təmin olunmasında və yeni mühitə uyğunlaşma prosesində sarsılmaz bir təməl rolunu oynayır. Xüsusilə regional tədqiqatların nəticələri ailə daxili münasibətlərin keyfiyyətinin depressiv meyillərin qarşısının alınmasında və ümumi həyat məmnunluğunun yüksəldilməsində digər sosial mənbələrə nisbətən daha stabil və davamlı təsir gücünə malik olduğunu nümayiş etdirir.

İcmal çərçivəsində aydın olur ki, psixoloji rifah anlayışı sadəcə anlıq emosional rahatlıq deyil, eyni zamanda fərdin öz potensialını reallaşdırması, həyatda bir məqsəd tapması və sağlam münasibətlər qurması ilə bağlıdır. Bu nöqtədə ailə faktoru rifahın həm hissi (hedonik), həm də mənəvi-funksional (eudaimonik) tərəflərinə təsir edən çoxölçülü bir qüvvə kimi çıxış edir.

Mədəni kontekst baxımından yanaşdıqda, Azərbaycan və Türkiyə kimi kollektivist dəyərlərə malik cəmiyyətlərdə ailə bağları fərdin sosial kimliyinin ayrılmaz bir hissəsidir. Bu

bağlılıq ailə dəstəyinin qoruyucu funksiyasını daha da gücləndirsə də, dəstəyin forması və emosional tonu həlledicidir. Belə ki, ailənin təqdim etdiyi qayğı normativ təzyiqə və ya həddindən artıq nəzarətə çevrilmədikdə tələbənin inkişafı üçün ən effektiv resursa çevrilir.

Yekun olaraq qeyd etmək olar ki, ailə dəstəyi tələbə rifahının həm qorunmasında, həm də inkişaf etdirilməsində mərkəzi sosial kapitaldır. Mövcud ədəbiyyat bu əlaqəni nəzəri səviyyədə tam şəkildə əsaslandırsa da, Azərbaycan mühitində bu mexanizmlərin spesifik xüsusiyyətlərini üzə çıxaracaq daha sistemli empirik araşdırmaların aparılması gələcək tədqiqatların prioritet istiqaməti kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Akın A. Psikolojik iyi oluş ölçekleri: Geçerlik ve güvenirlik çalışması. Educational Sciences: Theory & Practice, 2008;8(3):741–750.
2. Aydın G., Tezer E. The relationship between perceived social support and depression in Turkish adolescents. Psychological Reports, 1991;69(3):807–810. Doi: 10.2466/pr0.1991.69.3.807
3. Cohen S., Wills T.A. Stress, social support, and the buffering hypothesis. Psychological Bulletin, 1985;98(2):310–357. Doi: 10.1037/0033-2909.98.2.310
4. Diener E. Subjective well-being. Psychological Bulletin, 1984;95(3):542–575. Doi: 10.1037/0033-2909.95.3.542
5. Eker D., Arkar H. Çok Boyutlu Algılanan Sosyal Destek Ölçeği'nin faktör yapısı, geçerlik ve güvenirliği. Türk Psikoloji Dergisi, 1995;10(34): 45–55.
6. Eker D., Arkar H., Yaldız H. Çok boyutlu algılanan sosyal destek ölçeğinin gözden geçirilmiş formunun faktör yapısı, geçerlik ve güvenirliği. Türk Psikiyatri Dergisi, 2001;12(1):17–25.
7. Ryff C.D. Happiness is everything, or is it? Explorations on the meaning of psychological well-being. Journal of Personality and Social Psychology, 1989;57(6):1069–1081. Doi: 10.1037/0022-3514.57.6.1069
8. Triandis H.C. Individualism and collectivism. Westview Press. 1995. Doi: 10.4324/9780429499845
9. Yıldırım I. Algılanan sosyal destek ölçeğinin geliştirilmesi, güvenirliği ve geçerliği. Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi, 1997;13(13): 81–87.
10. Yıldırım I. Depression, test anxiety and social support among Turkish university students. Eurasian Journal of Educational Research, 2006;23: 217–231.

**Araz Ramiz ALIGULIYEV**
Prof. Dr. psychiatrist, narcologist, psychotherapist, Chief Doctor of the Medi-Art Clinic

**Gulnur Elnur ABISHOVA**
Master’s student at Khazar University, Department of Psychology, Clinical Psychology

## THE ROLE OF FAMILY SUPPORT IN THE PSYCHOLOGICAL WELL-BEING OF UNIVERSITY STUDENTS

### Summary

This article examines the influence of family support on the psychological well-being of university students, drawing from theoretical and empirical literature. The reasons for viewing the university period as a pivotal stage in an individual's life are articulated. Research indicates that academic stress, future uncertainty, and social transitions experienced by students directly shape their psychological well-being. In this context, social support emerges as a crucial protective factor. The article explains social support, including its direct effect and stress-buffering models. It notes that perceived social support is more closely linked to psychological well-being. Findings show that,

among all types, family support best correlates with students' emotional stability, fewer depressive symptoms, better academic adjustment, and greater life satisfaction. The concept of psychological well-being is discussed using both hedonic (subjective well-being) and eudaimonic (personal growth and purpose) frameworks, and it is established that the family factor affects both aspects of well-being. Moreover, in societies such as Azerbaijan and Turkey, where the family institution is central within a collectivist cultural context, family support exerts a more intense and multifaceted influence. In conclusion, family support is identified as a key social resource for safeguarding and enhancing student well-being; however, the need for systematic empirical research in this field in the Azerbaijani context is highlighted.

**Keywords**: Family support, social support, psychological well-being, university students, Stress-buffer model, life satisfaction

**Араз Рамиз АЛИГУЛИЕВ**
проф. др. психиатр, нарколог, психотерапевт, главный врач клиники «Меди-Арт»

**Гюльнур Эльнур АБЫШОВА**
Магистрант, Департамент психологии, Клиническая психология, Хазарский Университет

## РОЛЬ СЕМЕЙНОЙ ПОДДЕРЖКИ В ПСИХОЛОГИЧЕСКОМ БЛАГОПОЛУЧИИ СТУДЕНТОВ ВУЗОВ

### Резюме

В данной статье на основе теоретической и эмпирической литературы рассматривается влияние семейной поддержки на психологическое благополучие студентов университетов. Излагаются причины, по которым период обучения в университете считается ключевым этапом в жизни человека. Исследования показывают, что академический стресс, неопределенность в отношении будущего и социальные перемены, с которыми сталкиваются студенты, напрямую влияют на их психологическое благополучие. В этом контексте социальная поддержка выступает в качестве важнейшего защитного фактора. В статье объясняется понятие социальной поддержки, включая ее прямое воздействие и модели смягчения стресса. Отмечается, что воспринимаемая социальная поддержка более тесно связана с психологическим благополучием. Результаты показывают, что из всех видов поддержки семейная поддержка лучше всего коррелирует с эмоциональной стабильностью студентов, меньшим количеством депрессивных симптомов, лучшей академической адаптацией и большей удовлетворенностью жизнью. Концепция психологического благополучия обсуждается с использованием как гедонистической (субъективное благополучие), так и эвдемонической (личный рост и целеустремленность) моделей, и установлено, что семейный фактор влияет на оба аспекта благополучия. Более того, в таких обществах, как Азербайджан и Турция, где институт семьи занимает центральное место в коллективистском культурном контексте, семейная поддержка оказывает более интенсивное и многогранное влияние. В заключение, поддержка семьи определяется как ключевой социальный ресурс для защиты и повышения благополучия студентов; однако подчеркивается необходимость систематических эмпирических исследований в этой области в азербайджанском контексте.

**Ключевые слова**: поддержка семьи, социальная поддержка, психологическое благополучие, студенты университетов, модель «буфера стресса», удовлетворенность жизнью.

**Daxil olub:** 02.03.2026